Tədbirdə Bakı şəhər 24 nömrəli Uşaq və Gənclərin Yaradıcılıq Mərkəzinin 200 nəfərdən ibarət dərnək üzvü məharətlərini nümayiş etdiriblər. "Yurdumuza bahar gəlir" mövzusunda təşkil olunan tədbirdə kiçik yaşlı uşaqlar və məktəblilər rəqs, mahnı-xor, vokal, kukla teatrı, dram, bədii qiraət sahəsində bacarıqlarını göstəriblər.

Tədbirin keçirilməsində məqsəd milli adət-ənənələrin gənclər, uşaqlar arasında təbliğ edilməsi, tədris müəssisələrində valideynlərin uşaqların yaradıcılığı ilə daha yaxından maraqlanmasına nail olmaqdır.